

*Nuranə Şəfiyeva*

# Bu gün ZƏFƏR günüdür

Otuz illik həsrətin bitdiyi an günüdür
Bu gün zəfər günüdür.

Otuz ildə yetişən,  torpağının uğrunda canını fəda edən
Neçə neçə igidin, şəhadəti günüdür
Bu gün zəfər günüdür.

Ölkələr arasında,  taptalanmış qürurun
Vicdanın,namusunun
İndi ağ günə çıxan qürur duyan günüdür
Bu gün zəfər günüdür.

Dünya içrə qınanan, əzilən.tapdalanan
Üzünə baxılmayan, heç yerdə tanınmayan
Yurdum Azərbaycanın ağ gün görən günüdür
Bu gün zəfər günüdür.

Düşmən əsarətində olan torpaqlarımın
O torpaqda qurulan beton divarlarının
Darmadağın olaraq Azad olan günüdür
Bu gün zəfər günüdür.

Gözlərində yaş olan anaların günüdür
Ata deyib hayqıran  balaların günüdür
Bu gün zəfər günüdür.

Minaların altında əzilib tapdalanan
Boynu bükülmüş qalan Xarı bülbüllərimin
Azad olan günüdür.
Bu gün zəfər günüdür!

Ali Baş Komandanın nizamlı ordusunun
Tək Dəmir yumruğunun ətrafında birləşən
Bölünməz xalq günüdür
Bu gün zəfər günüdür.

Bakı Xəbər.- 2021.- 4-6 dekabr.- S.12.